## Mobil telefonla bazarlıq etmək imkanı…

«Golden Pay» şirkətinin təsiszisi və direktoru Fərid İsmayılzadənin çıxışında e-ticarət nağdsız ödənişləri stimullaşdıran amil kimi dəyərləndirilmişdir:

- «Dəyirmi masa»da səslənən fikirlər deməyə əsas verir ki, son illər Azərbaycanda elektron ödəniş sistemlərinin yaradılması üçün əsaslı zəmin yaradılmış, nağdsız ödəmələrlə bağlı müəyyən vərdişlər formalaşmışdır. Bu amillər nağdsız hesablaşmaların həcminin də artmasına səbəb olmuşdur. Azərbaycanda inkişaf tendensiyası və müasir texnologiyalardan istifadənin hüdudlarının genişlənməsi, bir çox xidmətlər kimi, onlayn ticarətə də tələbi artırır. Ölkəmizdə elektron ticarətin inkişafı sahəsində əhəmiyyətli dəyişikliklər nəzərə çarpır. Hazırda dünya ölkələri elektron ticarətin daha üstün və mobil versiyalarını tətbiq etməkdədir. Bunun üçün respublikamızın kart bazarında bir sıra amillərin nəzərə alınması vacibdir, xüsusən də köhnə texnologiyalardan uzaqlaşıb mobil texnologiyalara keçməyin zamanıdır.

Hazırda mobil texnologiyaların tətbiqi dairəsi o qədər genişlənmişdir ki, elektron ticarətin mobil versiyasına, yəni mobil ticarətə keçməkdən danışmaq lazımdır. Bu gün Azərbaycanda smartfon şəbəkəsi 11%-dən çoxdur, mobil telefonların sayı isə əhalinin sayından artıqdır. Hər yüz nəfərə 110 telefon düşür. Bu isə mobil telekom sisteminin «e-ticarət»ə inteqrasiyası üçün əla fürsət deməkdir. Hazırda dünya ölkələrində onlayn ödənişlərin ən rahat və sərfəlisi mobil ödəmələrdir.

«Golden Pay» şirkəti olaraq Azərbaycanda mobil ticarətlə, onlayn ödəmə ilə bağlı yenilikləri tətbiq etməyi, yeni layihələr həyata keçirməyi düşünürük. Artıq mobil ödənişlər texnologiyası ilə bağlı infrastrukturu formalaşdırmışıq. Banklarla, «MilliKartla» lazımi texniki və hüquqi məsələləri həll etmişik. Mobil ticarətlə bağlı ölkəmizin rabitə operatorlarından biri ilə razılaşma əldə olunmuşdur. Yəni mobil ticarətin arxitekturası üçün tam baza yaradılmışdır. Yaxın günlərdə bu layihəyə start vermək niyyətindəyik. Bundan başqa, metro və avtobuslarda onlayn ödəmə sisteminə keçidi nəzərdə tutan layihəni reallaşdırmağa hazırlaşırıq. Mobil telefon vasitəsilə həm metro, həm də avtobusda gediş haqqını ödəmək mümkün olacaqdır. Ticarət və iaşə obyektlərində mobil telefon vasitəsilə həm böyük, həm də xırda ödənişləri etmək üçün banklarla danışıqlar aparılır. Mobil ödəniş sistemi ilə kommunal ödənişlərlə yanaşı, telefon və mobil rabitə, internet və kabel televiziyası üzrə borcları da ödəmək mümkündür. Biz bu məqsədlə operator şirkətlə xüsusi güzəştlərin tətbiqini, müştərilər üçün bonus xalları toplanması və hədiyyələr qazanılması məsələsini müzakirə etmişik. Vergi və rüsumların mobil telefonlarla ödənişi də hazırda aktual məsələlərdəndir. Bu mənada, Vergilər Nazirliyini elektron ödənişlər sahəsində ən yaxın tərəfdaş hesab edirik.